Noyabrın 4-də Azərbaycan Gənc Müəllimlər Assosasiyası və "İrəli" İctimai Birliyinin birgə təşkilatçılığı ilə "Zəfər Forumu: Tarix Yazan Müəllim" adlı tədbir keçirilib.

8 noyabr – Zəfər Gününə həsr olunmuş forumda təhsil nazirinin müavini Muxtar Məmmədov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, dövlət və hökumət rəsmiləri, qeyri-hökumət təşkilatlarının nümayəndələri, təhsil işçiləri iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbir zamanı 44 günlük Vətən müharibəsində təhsil işçilərinin Azərbaycanın ən yeni tarixinin bir parçası olduğu, şanlı qələbənin qazanılmasında onların şücaəti və qəhrəmanlığı da vurğulanıb.

Giriş nitqi ilə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov qonaqları salamlayaraq, rəhbəri olduğu ali təhsil müəssisəsinin məzunlarının, hazırda pedaqoji fəaliyyətlə məşğul olan gənclərin böyük əksəriyyətinin 44 günlük Vətən müharibəsində iştirak etdiyini qeyd edib.

Təhsil nazirinin müavini Muxtar Məmmədov çıxışında diqqətə çatdırıb ki, II Qarabağ müharibəsi başlayan gündən təhsil işçiləri də könüllü olaraq döyüşə qatılaraq, şanlı qələbənin qazanılmasında öz töhfələrini veriblər. Nazir müavini qeyd edib ki, Vətən müharibəsində 760 təhsil işçisi böyük qəhrəmanlıqla döyüşüb. Müharibə zamanı 20 nəfər təhsil işçisi şəhidlik zirvəsinə ucalıb.

Muxtar Məmmədov əlavə edib ki, t əhsil ictimaiyyətinin bundan sonrakı əsas vəzifəsi izəfəri qoruyacaq və aşılayacaq gəncliyi sağlam ruhda tərbiyə etməkdir.

Daha sonra çıxış edən gənclər və idman nazirinin müavini İntiqam Babayev bildirib ki, müharibə zamanı qələbənin əldə olunmasında Azərbaycanın təhsil işçilərinin rolu danılmazdır.

Azərbaycan Gənc Müəllimlər Assosasiyasının sədri Rüfət Əsədzadə çıxışı zamanı rəhbəri olduğu təşkilatın fəaliyyəti boyu gənc müəllimlər üçün davamlı öyrənmə imkanları yaradılmasında, müsbət gənc müəllim imicinin formalaşmasında, həmçinin bu imicin təbliğ olunmasında töhfələr verdiyini qeyd edib. Təşkilat rəhbəri bundan sonra da "İrəli" İctimai

Birliyi ilə əməkdaşlıq çərçivəsində layihələrin keçirilməsində maraqlı olduğunu vurğulayıb.

Çıxış edən millət vəkili Müşfiq Cəfərov, Gənclər Fondunun gənclərlə iş şöbəsinin müdiri Faiq Məmmədov və digər qonaqlar Vətən müharibəsində iştirak etmiş müəllimlərimizə təşəkkür edib, onlara zəfər tariximizin gənclərimizə təbliği işində uğurlar arzulayıblar.